# Süqutdan qurtuluşa aparan Heydər Əliyev yolu

*Konstitusiyamızın birinci maddəsinin ilk cümləsində ifadə olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Dövlətçiliyin, suverenliyin və demokratiyanın ehtiva olunduğu bu konseptual cümlənin hər hansı tarixi hadisə, yaxud proses ekvivalentini tapmaq istəsəydik, bu, heç şübhəsiz ki, 15 İyun - Milli Qurtuluş Günü olardı. Çünki 31 il əvvəl, legitim hakimiyyətin yeganə mənbəyi olan xalq taleyini Heydər Əliyevə etibar etdi.*

31 il öncə başsız qalmış, taleyin ümidinə buraxılmış xalqa məhz Heydər Əliyev sahib çıxdı. Bu prosesi düzgün qiymətləndirmək üçün ilk növbədə Azərbaycan tarixinin faciəvi səhifələrindən olan 1987-1993-cü ilin 15 iyununa qədərki həmin dövrün tarixi-siyasi şəraiti təhlil olunmalıdır.

Milli Məclisin 16 iyun 1993-cü il Qərarında da ifadə olunduğu kimi, o dövrdə hakimiyyət boşluğu, qanunların işləməməsi, torpaqlarımızın xeyli hissəsinin erməni işğalçıları tərəfindən zəbt edilməsi, əhalinin əsas kütləsinin yoxsulluq həddindən aşağı səviyyədə yaşaması, respublikanın milli sərvətlərinin cinayətkarcasına talanması, sosial, siyasi və mədəni həyatda qarmaqarışıqlıq, özbaşınalıq, hərc-mərclik 1993-cü ilin iyununa qədərki son bir ilin əsas xarakterik əlamətləri idi.

Hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü bütün problemlərin fonunda iki məqsədi hədəfləmişdi, birincisi, nəyin bahasına olur-olsun hakimiyyətdə qalmaq və hakimiyyətdə olduqları müddətdə, xalqın sərvətlərini talamaq, bu yolda bütün maneələri dəf etmək, bütün xarici şərtlərlə razılaşmaq. Bildiyiniz kimi, bunun üçün hətta Kəlbəcəri belə xəyanətkarcasına düşmənə güzəştə getmişdilər.

İkincisi, onların bu xəyanətkar fəaliyyətinin qarşısını ala biləcək yeganə lider, xalqın tək ümid yeri Heydər Əliyevin fiziki məhvinə nail olmaq. Təsəvvür edin, ölkə günü-gündən uçuruma yuvarlandığı, torpaqları işğal olunduğu bir şəraitdə, hakimiyyəti mənimsəməklə xalqa qarşı ən ağır cinayət törədən odövrkü iqtidar xalqın gözünün Naxçıvana dikildiyini görərək bütün potensialını Heydər Əliyevlə mübarizəyə, Naxçıvana qarşı düşmən münasibətə səfərbər etmişdi. Onların bu cılız məqsədləri, aciz psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və kor-koranə addımları xalqın səbrini son həddə çatdırmış, ölkədə ciddi narazılıq yaratmışdı. Məhz AXC-Müsavat iqtidarının yaratmazlığı nəticəsində "mərkəzi hakimiyyətə" tabesizlik göstərən qanunsuz dəstələr meydana çıxmağa başladı. Vəziyyətdən çıxmaq üçün AXC-Müsavat cütlüyünə "günah keçisi" lazım idi və qurban kimi belə qanunsuz dəstələrdən birinə başçılıq edən və milli məsələlərə münasibəti heç də Xalq Cəbhəsi xəyanətkarlarından fərqlənməyən Surət Hüseynov seçildi. O, satqınlıqda və xəyanətdə ittiham edilərək ona qarşı təqibetmə kampaniyasına başlanıldı və dövrün iqtidarı siyasi hakimiyyətdəki "uğurlarını" hərbi sahədə də təkrarladı. Təsəvvür edin, cəbhədə ağır döyüşlər getdiyi halda AXC-Müsavat iqtidarı Gəncəyə məqsədyönlü şəkildə milli ordunun bütün növlərindən ibarət genişmiqyaslı hərbi qüvvələri, hətta hərbi hava hissələri cəlb etdilər. Vətəndaş müharibəsi nəticəsində 35 nəfər həlak oldu, 130 nəfər isə yaralandı. Milli Məclisin 5 iyun 2020-ci il tarixli iclasında sədrin birinci müavini Əli Hüseynlinin çox dəqiqliklə ifadə etdiyi kimi, "qiyamı törədən qüvvələrlə həmin qiyamın qarşısını almağa çalışan qüvvələr eyni cinayəti törədilər".

Dəhşətlisi odur ki, bu cinayətlər yalnız qardaş qırğı ilə ehtiva olunmurdu. Qarşıdurma hakimiyyət böhranına gətirib çıxarmış, orduda nizam-intizam xeyli zəifləmiş, nəticədə Ermənistan tərəfindən Ağdam, Füzuli, Cəbrayıl istiqamətlərində hücumlar şiddətlənmiş, ciddi itkilər verilmiş, strateji mövqelər itirilmiş və bu rayonların işğalı labüdləşmişdi. Dövlətin kadr siyasətinin Azərbaycan Xalq Cəbhəsinin olmayan potensialına söykənməsi, bir qayda olaraq, ancaq populist və başıpozuq, özü barədə əsassız yüksək qənaətdə olan "meydan yetişdirmələri"nin irəli çəkilməsi, şəxsi sədaqət, dostbazlıq, qohumbazlıq prinsiplərinə görə vəzifələrə təyinat idarəçiliyi böhrana sürükləyirdi. Ulu Öndərin özünün dediyi kimi, "qabiliyyət, səriştə və səviyyə məsələləri arxa plana keçirilmiş, Azərbaycanın intellektual potensialına məhəl qoyulmurdu". Məhz bu kimi kadrların "böyük zəhməti" hesabına yerlərdə hərc-mərclik, zorakılıq halları adi hala çevrilmiş, ayrı-ayrı şəxslər qeyri-qanuni yollarla dövlət orqanlarını öz əllərinə keçirmiş, onsuz da dağıdılmış iqtisadi sistemə köklü ziyan dəymiş, əhaliyə sosial xidmət və təminat xeyli pozulmuşdu.

Bir sözlə, yaşanan proseslərin, o cümlədən Gəncə hadisələrinin timsalında o dövrün getdikcə mürəkkəbləşən ağır situasiyası ozamankı hakimiyyətin səbətsiz siyasətinin nəticəsi və məntiqi yekunu idi. Belə bir vəziyyətdə nəinki xalqın, eyni zamanda xəyanətkar və qorxaq AXC-Müsavat cütlüyünün özünün də yeganə ümidi Heydər Əliyevə qalmışdı.

Heydər Əliyev xalqın təkidli tələbi ilə paytaxta qayıtdığı həmin vaxtlarda daha iki həqiqəti meydana çıxarmışdı. Birincisi, AXC-Müsavat iqtidarının səbətsiz, prinsipsiz və talançı olduğu qədər, həm də qorxaqlardan ibarət olması. Təsəvvür edin, vəziyyətin ağırlığına baxmayaraq, həmin dövrdə respublikanın rəhbər vəzifəli şəxsləri vətəndaş qarşıdurmasının, qardaş qırğınının törədildiyi Gəncədə - hadisə yerində olmamış və vəziyyətin sabitləşdirilməsi üçün heç bir əməli tədbirlər həyata keçirməmişdilər. Nəticədə, xalqın təkidli tələbi ilə Bakıya gəlmiş Ulu Öndər öz həyatını təhlükəyə ataraq Gəncəyə getməli oldu və dövrün iqtidar mənsublarını Azadlıq meydanında dar ağacından sallanmaqdan xilas etdi.

İkincisi, Azərbaycan xalqı bir daha gördü ki, bu cür qorxaq və prinsipsiz bir hakimiyyət dövləti daha da uçuruma aparır və hakimiyyətin yeganə mənbəyi kimi Azərbaycan xalqı bu satqınların hərislik yolunu birdəfəlik bağladı.

Heydər Əliyev hakimiyyətə gəldikdən bir il keçməmiş artıq ordu quruldu, əks-hücumla Cəbrayılın, Füzulinin kəndləri, Horadiz qəsəbəsi düşməndən azad olundu, Ermənistan o zaman bizim çox ehtiyacımız olan atəşkəsə məcbur edildi. Sonrakı dövrdə atılan addımlar, başlanan şərəfli yol barədə saatlarla danışmaq olar.

Ümumiyyətlə, 15 iyun Heydər Əliyevin Azərbaycan xalqının xilaskarı kimi çıxış etdiyi ilk tarixi proses olmayıb. Hələ 1969-cu ilin 14 iyulunda Ümummilli Liderin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilməsi ilə Azərbaycan geri qalmış ucqar ölkədən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu. Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita elə sovet dövründəcə Azərbaycana müstəqil davranmaq imkanı verdi.

Tarixdən bəllidir ki, sovet hakimiyyətinin ilk illərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Nə qədər qəribə olsa da, SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda yenidən baş qaldırdı. Bolşeviklərin muzdurlar şurasından fərqli olmayan AXC-Müsavat cütlüyü sovetlərə bağlı nə varsa, hər şeyə nifrət aşılamağa, hətta İkinci Dünya müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi, Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, Azərbaycan xalqı Heydər Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq.

Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdiyi halda, 1991-ci ildə, hətta SSRİ dağılandan sonra belə o dövrün hakimiyyəti SSRİ-dən çıxmağa qorxurdu. Öncə Bakıda qaldırılmalı olan üçrəngli bayrağı yalnız Heydər Əliyev cəsarət edib Naxçıvanda qaldırdı. Əsl müstəqillik yolu, əsl qurtuluş və dirçəliş əslində elə bu idi.

Ümumiyyətlə, bu gün qərəzsiz və səmimiyyətlə düşünən hər bir azərbaycanlı yaxşı başa düşür ki, Heydər Əliyev milli özünüdərkdir, Heydər Əliyev bizim müasir müstəqillik təfəkkürümüzün banisidir. Sirr deyil ki, biz kimin hansı mif uydurmasından asılı olmayaraq, mövcudiyyəti dövründə SSRİ-yə öz dövlətimiz kimi yanaşmış, bu dövlətə sidq ürəkdən inanmışıq. Bizim çox dəyərli ziyalılarımız belə əqidəli kommunist kimi sovet dövlətini özününkü hesab edib. Bu inamla yaşayan xalqın müstəqillik barədə düşünərək SSRİ kimi qüdrətli bir dövlətdən üz çevirməsi faktiki mümkünsüz idi. Amma Ulu Öndərin haqsızlıqlara məruz qalıb 1987-ci ildə siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması bu xalqın sovetlərə inamının itməsi ilə nəticələndi. Azərbaycanın müasir müstəqillik yolu da məhz bu qırılma nöqtəsindən başlanır. Təsadüfi deyil ki, Heydər Əliyevin repressiyalara məruz qalmasından cəmi bir neçə ay sonra, 1988-ci ildə başlanan meydan hərəkatının ilk iştirakçılarının əllərindəki etiraz plakatları məhz Heydər Əliyevin portretlərindən ibarət idi.

Çox təəssüf ki, bəzi hallarda Azərbaycan tarixçiləri və Azərbaycanın müstəqillik tarixini qələmə alanlar nədənsə bu məqamın üzərindən sükutla keçirlər. Əlbəttə, Heydər Əliyevin böyük tarixi cılız adamların yazdığı və yazdırdığı tarix kitablarına sığışa bilməzdi. Çünki O özü elə tarix yaradan dahi idi və bunu hər kəs qəbul edib və edir.

Amma unudurlar ki, istər əsrin əvvəlində, istərsə də əsrin sonunda onların istinad etdiyi şəxsiyyətlərin, heç birinin özünün yolu olmayıb, amma Heydər Əliyevin yolu var! Çünki əgər hansısa siyasi xətt, ideya davam edirsə, bu, yoldur, amma etiraf edək ki, nə qədər mütərəqqi olur-olsun, siyasi ideyalar faydalı formada davam etmirsə, bu artıq dalandır, yol deyil.

Bu gün Heydər Əliyevin davam edən yolu, siyasi xətti müstəqilliyin, suverenliyin, inkişaf və tərəqqinin yeganə qarantıdır. Tarix ən azı iki dəfə göstərib ki, Azərbaycan dövləti yalnız Heydər Əliyev yolunda yürüdükcə var olur, güclənir. Tarix göstərir ki, Azərbaycan xalqının faciələri məhz Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır.

Ermənistan dövləti yaranandan, yeni 1918-ci ildən onların Azərbaycana ərazi iddiaları var və 1969-cu ilə qədər bu iddialarını hissə-hissə uğurla realizə ediblər. Hətta 60-cı illərin ortalarında sosial-məişət zəminini bəhanə edib Qarabağda qiyam da qaldırmışdılar. Məhz Heydər Əliyevin simasında Azərbaycanda güclü və milli iradənin hakimiyyətə gəlməsi bu prosesə nöqtə qoydu. 1969-cu ildən 1987-ci ilə qədər Qarabağda kimsə baş qaldıra bildimi? Xeyr!

Amma 1987-ci ildə Ulu Öndərin istefasından iki həftə keçməmiş haylar keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanın tərkibinə verilməsi məsələsini qaldırdılar. Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Çünki cənab İlham Əliyevin 10 mayda Şuşadan bəyan etdiyi kimi, "Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu". Budur, yazılmalı tarix. Yoxsa, Zori Balayana kiminsə sanballı cavabı, yaxud kiminsə populist qəzet məqalələri seriyası, bunlar hansı siyasi-hüquqi nəticə verdi? 1987-ci ildən 1993-cü ilə qədər kim dayana bildi erməni millətçiləri və onların himayədarları qarşısında?

Bu gün Heydər Əliyev artıq siyasət üstü dəyərdir. İstər iqtidar, istər müxalifət komandası olsun, bu ölkədə, bu regionda yalnız bu yola söykənib xalqa xidmət etmək və uğur qazanmaq olar. Bu yol bizi Qarabağa, Şərqi Zəngəzura apardı, hazırda da 300 mindən artıq soydaşımızın üzü Göyçəyə, İrəvana və Qərbi Zəngəzuradır. Bu mənada, Heydər Əliyevin bu xalq qarşısında ən böyük xidmətlərindən biri də məhz dövlətçiliyin, milli iradəni ifadə edən siyasi xəttin davamlılığını cənab İlham Əliyevin timsalında təmin etməsi oldu. Biz, adətən ata vəsiyyətinə istinad edərkən Zəfərimizə köklənirik, amma unutmayaq ki, Heydər Əliyev həm də böyük haqq və hüquq adamı idi. Onun digər vəsiyyəti özünün şah əsəri olan Azərbaycan Konstitusiyasının 8-ci maddəsində ehtiva olunur. Cənab İlham Əliyev necə ki şanlı Zəfəri ilə son 200 ildə qarşıda duran əsas ümummilli vəzifəni həll etməklə ata vəsiyyətini yerinə yetirdi, eləcə də həyata keçirdiyi ardıcıl sosial-iqtisadi, hüquqi və diplomatik addımlarla Ulu Öndərin dövlətçilik konsepsiyasını reallaşdırdı. Bu gün cənab İlham Əliyev, sözün əsl mənasında, xalqının vahidliyini təcəssüm etdirir, Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyinin, sözün əsl mənasında, təminatçısı və harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların hamisidir. Azərbaycan xalqının isə qarşısında yalnız bir vəzifə var, cənab İlham Əliyevin ətrafında sıx birləşmək. Ən azı mövcudiyyətimizi qorumaq naminə, böyüyən övladlarımızın xoşbəxt həyatı, təhlükəsizlik, sabitlik və inkişaf, müstəqillik, suverenlik və ən əsası Zəfərlərimizin davamlılığı naminə bu yol davam etməlidir.

**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**